# PRESS-RELİZ

## Elmin İnkişafı Fondunda Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı keçiriləcək referenduma hazırlığa dair iclas keçirilmişdir

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunda sentyabrın 26-da Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı keçiriləcək referenduma hazırlığa dair iclas keçirilib.

İclasda çıxış edən Fondun icraçı direktoru Elçin Babayev ümumxalq səsverməsinə çıxarılacaq məsələlərin müqayisəli təhlili ilə bağlı təqdimat edərək bildirib ki, Konstitusiyaya dəyişiklik həm zərurət, həm də günün tələbidir: "Hələ ilin əvvəlində Azərbaycan prezidenti İlham Əliyev 2016-cı ili islahatlar ili elan edib. Konstitusiyaya dəyişiklikləri ölkə prezidenti tərəfindən aparılan siyasi və iqtisadi islahatların davamı hesab etmək olar. Yaradılması nəzərdə tutulan vitse-prezidentlik institutu qəbul edilən qərarların icrasını təmin etmək üçün optimal institut kimi nəzərdə tutulub. Dəyişiklik və əlavələrə əsasən, sahibkarlıq sahəsində dövlətin funksiya və vəzifələrinin sərhədləri dəqiq müəyyən edilib. Seçkili orqanlarda yaş senzinin aradan qaldırılması da mühüm addımdır".

Fondun icraçı direktoru qeyd edib ki, bütövlükdə dəyişikliklər Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra ölkənin sosial-iqtisadi, hüquqi islahatlar nəticəsində nail olduğu uğurların möhkəmləndirilməsi, hüquq normalarının bilavasitə ana qanunda təsbit edilməklə onlara əməl olunmasının hüquqi əsaslarının gücləndirilməsi məqsədini güdür: "Azərbaycan Konstitusiyasına bundan əvvəl edilən əvvəlki iki dəyişiklikdə olduğu kimi, hazırkı dəyişikliklər hazırlanan zamanı da Azərbaycanın özünəməxsus inkişaf yolunun dayanıqlığının təmin edilməsi, ölkə üçün daha uğurlu idarəetmə modelinin düzgün seçimi hədəf kimi müəyyən olunub, stabil dövlət quruculuğunun təməlinin möhkəmləndirilməsi və onun qanunsuz müdaxilələrdən qorunması əsas vəzifə kimi qarşıya qoyulub".

İclasda çıxış edən Fond əməkdaşları sentyabrın 26-da keçiriləcək ümumxalq səsverməsində yaxından iştirak edəcəklərini, Konstitusiyaya ediləcək əlavə və dəyişikliklərə səs verəcəklərini bildiriblər.

**Elmin İnkişafı Fondunun mətbuat xidməti**